TƏSDİQ EDİLMİŞDİR
Azərbaycan Respublikası
Səhiyyə Nazirliyi
Farmakoloji və Farmakopeya
Ekspert Şurasının sədri

_____ E.M.Ağayev

4 mart 2026-cı il

İSTİFADƏ TƏLİMATI

MONODOKS 100 mq kapsul
Oral qəbul edilir.

Təsiredici maddə: 1 kapsulda 100 mq doksisiklinə ekvivalent 115,414 mq doksisiklin hiklat vardır.
***Köməkçi maddələr*:** laktoza monohidrat,natrium lauril sulfat, qarğıdalı nişastası, laktoza monohidrat (inək südündən alınır), maqnezium stearat; jelatin kapsulda eritrozin, indiqo karmin, tartrazin, titan dioksid, jelatin (qaramal sümüyündən alınır) vardır.

Bu dərman vasitəsini istifadə etməyə başlamadan əvvəl bu İSTİFADƏ TƏLİMATINI diqqətlə oxuyun, çünki sizin üçün vacib məlumat vardır.

- *Bu istifadə təlimatını saxlayın. Daha sonra təkrar oxumağa ehtiyac ola bilər.*
- *Əlavə suallar yaranarsa, həkim və ya əczaçıya müraciət edin.*
- *Bu dərman vasitəsi fərdi olaraq sizin üçün təyin edilmişdir, başqalarına verməyin.*
- *Bu dərman vasitəsindən istifadə zamanı, həkim və ya xəstəxanaya getdikdə həkimə bu dərman vasitəsindən istifadə etdiyiniz barədə məlumat verin.*
- *Bu təlimatda yazılanlara tam olaraq riayət edin. Dərman vasitəsi haqqında sizə tövsiyə olunan dozadan başqa **yüksək və ya aşağı doza** qəbul etməyin.*

Bu istifadə təlimatında
1. MONODOKS nədir və nə üçün istifadə olunur?
2. MONODOKS-u istifadə etmədən əvvəl nəzərə alınmalı olanlar
3. MONODOKS necə istifadə edilir?
4. Mümkün əlavə təsirləri hansılardır?
5. MONODOKS-un saxlanma qaydası
***Bölmələri* vardır.**

1. MONODOKS nədir və nə üçün istifadə olunur?

MONODOKS bakteriya adlanan mikroorqanizmlərin törətdiyi xəstəliklərin müalicəsində istifadə olunan antibiotikdir. MONODOKS-un təsiredici maddəsi olan doksisiklin bakteriyaların zülal sintezini pozaraq onların çoxalmasının qarşısını alır.

MONODOKS-un tərkibində 100 mq doksisiklinə ekvivalent olan 115,414 mq doksisiklin hiklat vardır. Kapsulun qapağı qızılı-qəhvəyi rəngli qeyri-şəffaf, gövdəsi isə tünd sarı rəngli qeyri-şəffaf, sərt jelatin kapsuldur və kapsulun daxilində sarı rəngli toz mövcuddur. Bir qutuda 14 kapsul vardır.
MONODOKS həssas bakteriyaların törətdiyi aşağıdakı müxtəlif infeksion xəstəliklərin müalicəsində istifadə olunur.

- sidik yolları və genital infeksiyalarda;
- cinsi əlaqə yolu ilə keçən (zöhrəvi) bəzi xəstəliklərdə (süzənək, sifilis xəstəliklərində alternativ müalicə kimi);
- tənəffüs yollarının xəstəliklərində (pnevmoniya, atipik pnevmoniya, xroniki bronxit, sinusit və s.);
- dəri və yumşaq toxuma infeksiyalarında, antibiotik müalicəsinin zəruri hesab edildiyi sızanaqlarda;
- xolera, amöbioz, turist diareyası kimi bağırsaq xəstəliklərində;
- bəzi göz infeksiyalarında (traxoma, inklüziya konyunktiviti və s.);
- Qayalı dağlar ləkəli qızdırması, Q qızdırması, tif növləri, bit və gənə yolu ilə keçən xəstəliklər, Malta qızdırması (brusellyoz), taun, tulyaremiya, leptospiroz, psittakoz kimi xəstəliklərin müalicəsində;
- malyariyanın qarşısının alınması və müalicəsində;
- turist diareyasının qarşısının alınmasında;
- qazlı qanqrena və tetanozun müalicəsində alternativ müalicə vasitəsi kimi.

2. MONODOKS-u istifadə etmədən əvvəl nəzərə alınmalı olanlar
Tetrasiklin qrupu dərman vasitələrinin dişlərin inkişafı dövründə (hamiləliyin son iki yarısı, körpəlik dövrü və 8 yaşına qədər uşaqlıq dövrü) istifadəsi dişlərdə daimi rəng dəyişikliklərinə (sarı–boz–qəhvəyi) səbəb ola bilər. Bu arzuolunmaz təsir bu preparatların uzunmüddətli istifadəsi zamanı daha tez-tez müşahidə olunur, lakin təkrarlanan qısamüddətli istifadələrdə də bildirilmişdir. Eyni zamanda diş minasının hipoplaziyası (inkişaf pozğunluğu) da qeydə alınmışdır. Buna görə də tetrasiklin qrupu dərman vasitələri, tənəffüs yolu ilə yoluxma (məruz qalma sonrası) nəticəsində yaranmış qarayara halları da daxil olmaqla qarayara xəstəliyi istisna olmaqla, digər hallarda bu yaş qrupunda yalnız digər dərman vasitələri təsirsiz olduqda və ya istifadəsi qəti qadağan edilmədikdə istifadə edilməlidir.

MONODOKS-u aşağıdakı hallarda İSTİFADƏ ETMƏYİN.
Əgər

- doksisiklinə və ya MONODOKS-un tərkibində olan köməkçi maddələrdən hər hansı birinə qarşı allergiyanız olduğu bildirilibsə;
- 8 yaşından kiçik uşaqlarda;
- ciddi qaraciyər çatışmazlığınız varsa;
- hamiləsinizsə;
- körpənizi ana südü ilə qidalandırırsınızsa.

MONODOKS-u aşağıdakı hallarda DİQQƏTLƏ İSTİFADƏ EDİN.

- MONODOKS ilə müalicə zamanı yüngüldən ağır dərəcəyədək dəyişə bilən, bəzən qanlı və selikli ola bilən ishal inkişaf edərsə. Bu hal psevdomembranoz kolit adlanan və bəzən həyati təhlükə yarada bilən xəstəliklə əlaqəli ola bilər;
- günəş işığına qarşı həssaslıq yaranarsa (dəridə qızartı, günəş yanığına bənzər dəyişikliklər);
- MONODOKS-a davamlı mikroorqanizmlərlə (bakteriyalar, göbələklər və s.) infeksiya inkişaf edərsə;
- A qrupu beta-hemolitik streptokokklarla infeksiya keçirdiyiniz bildirilibsə (ən azı 10 günlük müalicə tələb olunacaq);
- zöhrəvi xəstəliklər zamanı sifilisin də yanaşı ola biləcəyindən şübhə edilirsə (əlavə müayinələr tələb olunacaq);
- malyariyanın profilaktikası məqsədilə istifadə edildikdə, digər bölgələrdəki ağcaqanadlar vasitəsilə yenə də malyariya inkişaf edə biləcəyi nəzərə alınmalıdır;
- yemək borusunda zədələnmə riski mövcuddursa;
- porfiriya adlanan qan xəstəliyiniz olduğu bildirilibsə;
- miasteniya adlanan əzələ zəifliyi xəstəliyiniz varsa;
- sistemik lupus (kəpənək xəstəliyi) adlanan birləşdirici toxuma xəstəliyinizin olduğu bildirilibsə.

Bu xəbərdarlıqlar keçmişdə hər hansı bir dövrdə sizə aid olmuşdursa, mütləq həkiminizə müraciət edin.

MONODOKS-un qida və içki ilə birlikdə istifadəsi
MONODOKS qida borusunu qıcıqlandıra biləcəyi üçün bol su ilə və dik vəziyyətdə (oturaq halda) qəbul edilməlidir. Dərman vasitəsi qəbul edildikdən sonra ən azı 30 dəqiqə uzanmaq olmaz. Əgər mədədə qıcıqlanma hissi yaradırsa, yeməklə birlikdə və ya südlə qəbul edilə bilər.

Hamiləlik
Dərman vasitəsini istifadə etməzdən əvvəl həkim və ya əczaçı ilə məsləhətləşin.
MONODOKS diş və sümük inkişafı ilə əlaqəli arzuolunmaz təsirlərə malikdir. Buna görə də, istifadəsi tövsiyə edilmir.
Dəqiq olmasa da, nəzərə alınmalıdır ki, bu preparat doğum nəzarət həblərinin effektivliyini azalda bilər.
Müalicə zamanı hamilə olduğunuzu aşkarladıqda, dərhal həkim və ya əczaçı ilə məsləhətləşin.

Laktasiya
Dərman vasitəsini istifadə etməzdən əvvəl həkim və ya əczaçı ilə məsləhətləşin.
Laktasiya dövründə MONODOKS-un istifadəsi tövsiyə edilmir.

Nəqliyyat vasitələrinin və mexanizmlərin istifadəsi
MONODOKS-un nəqliyyat vasitələrinin və mexanizmlərin idarə edilməsinə təsiri məlum deyil.

MONODOKS-un tərkibində olan bəzi köməkçi maddələr haqqında vacib məlumat
MONODOKS-un tərkibində laktoza monohidrat vardır. Əgər həkiminiz tərəfindən əvvəllər sizdə bəzi şəkərlərə qarşı dözümsüzlük olduğu bildirilibsə, bu dərman vasitəsini qəbul etməzdən əvvəl həkiminizlə məsləhətləşin.
Bu preparatın tərkibində tartrazin vardır. Bu maddə allergik reaksiyalara səbəb ola bilər.

Digər dərman vasitələri ilə birlikdə istifadəsi
MONODOKS aşağıda göstərilən dərman vasitələri ilə birlikdə istifadə edilməməlidir.

- penisilin qrupuna aid antibiotiklər;
- alüminium, kalsium və maqnezium tərkibli mədə turşuluğunu azaldan preparatlar;
- bismut, sukralfat kimi mədə qoruyucu dərman vasitələri;
- dəmir və sink tərkibli preparatlar;
- qan laxtalanmasının qarşısını alan varfarin kimi dərman vasitələri;
- epilepsiyanın müalicəsində istifadə olunan fenobarbital, karbamazepin, fenitoin, primidon kimi dərman vasitələri;
- diazepam kimi yuxugətirici dərman vasitələri;
- depressiyanın müalicəsində istifadə olunan venlafaksin, mirtazapin, nefazodon;
- orqan transplantasiyalarında istifadə olunan takrolimus və siklosporin;
- ürək xəstəliklərinin və yüksək qan təzyiqinin müalicəsində istifadə olunan kalsium kanal blokatorları;
- cinsi zəifliyin müalicəsində istifadə olunan sildenafil və oxşar dərman vasitələri;
- oral kontraseptivlər;
- anesteziyada istifadə olunan metoksifluran (böyrək çatışmazlığı riski yarada bilər);
- alkoqol.

Əgər siz hal-hazırda hər hansı reseptlə və ya reseptsiz buraxılan dərman vasitələrindən istifadə edirsinizsə və ya bu yaxınlarda istifadə etmisinizsə, bu barədə həkimə və ya əczaçıya məlumat verin.

3. MONODOKS necə istifadə edilir?
Düzgün istifadəsi və doza/ istifadə tezliyi üçün təlimatlar
Həkiminiz infeksiyanın növünə və ağırlıq dərəcəsinə əsasən qəbul edəcəyiniz dozanı və MONODOKS ilə aparılacaq müalicənin müddətini müəyyən edəcəkdir.
Həkiminiz başqa cür tövsiyə etmədikcə, adətən yüngül və orta dərəcəli infeksiyalarda başlanğıc doza kimi gündə iki dəfə 100 mq və ya tək doza şəklində 200 mq qəbul edilməsi, daha sonra isə gündə 100 mq istifadəsi tövsiyə olunur. Ağır infeksiyalarda müalicə 200 mq doza ilə davam etdirilə bilər.
Müalicə müddəti adətən 10 gündür.
Müxtəlif infeksiyalar zamanı fərqli dozalar və istifadə müddəti tövsiyə olunur:

- sızanaqların müalicəsində gündə 50 mq, 6–12 həftə müddətində;
- cinsi əlaqə yolu ilə keçən xəstəliklərdə gündə 2 dəfə 100 mq, 7–10 gün müddətində;
- sifilis xəstəliyində gündə 300 mq, bölünmüş dozalarda;
- bit və ya gənə mənşəli qızdırmalarda infeksiyanın ağırlıq dərəcəsindən asılı olaraq 100–200 mq tək doza şəklində;
- malyariyada gündə 200 mq, ən azı 7 gün müddətində (xinin kimi digər dərman vasitələri ilə birlikdə);
- Tifus skrabının qarşısının alınmasında 200 mq tək doza şəklində;

- turist diareyasının qarşısının alınmasında səyahətin ilk günü 200 mq, daha sonra səyahət müddətində gündə 100 mq olmaqla maksimum 3 həftə (21 gün);
- leptospiroz adlanan infeksiyaların qarşısının alınması üçün səyahət müddətində gündə 200 mq və səyahət bitdikdən sonra bir dəfə əlavə olaraq 200 mq qəbul edilməsi tövsiyə olunur. Həkiminiz başqa cür göstəriş vermədikcə, 3 həftədən artıq müddətdə istifadə etməyin.

İstifadə qaydası və üsulu
MONODOKS oral yolla, çeynəmədən, bol su ilə və dik vəziyyətdə qəbul edilməlidir. Dərman vasitəsi qəbul edildikdən sonra 30 dəqiqə ərzində uzanmaq tövsiyə olunmur.
Fərdi yaş qrupları üçün istifadə qaydaları
Uşaqlarda istifadəsi
8 yaşdan kiçik uşaqlarda istifadəsi tövsiyə edilmir. Diş və sümük inkişafında pozğunluqlara səbəb ola bilər.

Yaşlılarda istifadəsi
Yaşlı xəstələr üçün gənc xəstələrdə tövsiyə olunan doza eyni şəkildə tövsiyə olunur.

Xüsusi xəstəlik hallarında istifadə
Böyrək çatışmazlığı
Adi dozada istifadə edilə bilər.

Qaraciyər çatışmazlığı
Ağır dərəcəli qaraciyər çatışmazlığı olan xəstələrdə istifadə edilməməlidir.
Əgər MONODOKS-un təsirinin çox güclü və ya zəif olduğunu müşahidə edirsinizsə, həkim və ya əczaçı ilə məsləhətləşin.

Əgər tövsiyə edilən dozadan çox MONODOKS istifadə etmisinizsə
Əgər MONODOKS preparatından qəbul etməli olduğunuz miqdardan artıq qəbul etmisinizsə, həkim və ya əczaçı ilə məsləhətləşin.
Doza həddinin aşılması zamanı ürəkbulanma, iştahsızlıq və ishal müşahidə oluna bilər. Həkiminiz mədənin boşaldılması üçün tədbirlər görəcək və digər zəruri tədbirləri həyata keçirəcək.

MONODOKS-u istifadə etməyi unutmusunuzsa
Əgər növbəti dozanın vaxtı yaxın deyilsə, xatırladığınız anda MONODOKS dozasını qəbul edin. Növbəti dozanı adi vaxtında istifadə edin.
Unudulmuş dozanı kompensasiya etmək üçün ikiqat doza istifadə etməyin.

MONODOKS ilə müalicə dayandırıldıqda baş verə biləcək təsirlər
Həkiminizlə məsləhətləşmədən MONODOKS preparatının istifadəsini qəfil dayandırmayın. Antibiotiklərin düzgün olmayan istifadəsi davamlı (rezistent) mikroorqanizmlərin inkişafına səbəb ola bilər və xəstəlik lazımi şəkildə sağalmadığı üçün infeksiya əlamətlərinin davam etməsinə gətirib çıxara bilər.

4. Mümkün əlavə təsirləri hansılardır?
Bütün dərman vasitələri kimi, MONODOKS da tərkibində olan maddələrə həssas olan şəxslərdə əlavə təsirlərin yaranmasına səbəb ola bilər bilər.

Aşağıdakılardan hər hansı biri baş verərsə, MONODOKS qəbulunu dayandırın və DƏRHAL həkiminizə məlumat verin və ya sizə ən yaxın xəstəxananın təcili yardım şöbəsinə müraciət edin.

- nəfəs almaqda çətinlik çəkirsinizsə və ya xırıltılı nəfəs alırsınızsa, üzünüzdə, dilinizdə və ya boğazınızda şişkinlik yaranarsa; bunlar anafilaktik şok kimi ciddi allergik reaksiyanın əlamətləri ola bilər;
- dərinizdə və ya göz ətrafında içi şəffaf və ya qanlı maye ilə dolu qabarcıqlar əmələ gələrsə və ya dəriniz geniş sahələrdə soyulmağa başlayarsa (müxtəlif növ ağır allergik dəri xəstəliklərinin əlamətləri ola bilər);
- ciddi günəş yanığı yaranarsa.

Bunların hamısı çox ciddi əlavə təsirlərdir.
Əgər bunlardan hər hansı biri sizdə müşahidə olunursa, təcili tibbi müdaxilə və ya xəstəxanaya yerləşdirilmə tələb oluna bilər.
Bu çox ciddi əlavə təsirlərin hamısı çox nadir hallarda baş verir.

Aşağıdakılardan hər hansı biri baş verərsə, dərhal həkiminizə məlumat verin və ya sizə ən yaxın xəstəxananın təcili yardım şöbəsinə müraciət edin.

- qan analizlərində qırmızı qan hüceyrələrinin, ağ qan hüceyrələrinin və ya laxtalanma hüceyrələrinin anormal dərəcədə azalması nəticəsində qanaxma, qızdırma, infeksiya yaranarsa və ya dərinin altında iynə ucu böyüklüyündə nöqtəvari göyərmələr müşahidə olunarsa;
- porfiriya xəstəliyi inkişaf edərsə (qanazlığı, qarın ağrısı, dərinin işığa həssaslığı);
- qaraciyər funksiyasının ciddi pozulmasına işarə edən qan analizlərində dəyişikliklər, sarılıq kimi əlamətlər yaranarsa;
- uzun müddət davam edən şiddətli və ya qanlı, selikli ishal, qarın ağrısı və spazmlar olarsa (psevdomembranoz kolit);
- udmada çətinlik, döş sümüyünün arxasında yanma və ağrı hissi yaranarsa (qida borusunun qıcıqlanması);
- vaginada axıntı, qaşınma, kandidoz və ya preparata davamlı digər infeksiyalar (ağız və dil infeksiyaları kimi) inkişaf edərsə;
- sistemik lupus (kəpənək xəstəliyi) xəstəliyində pisləşmə müşahidə olunarsa.

Bunların hamısı ciddi əlavə təsirlərdir və təcili tibbi müdaxilə tələb oluna bilər.
Ciddi əlavə təsirlər çox nadir hallarda rast gəlinir.

Aşağıdakılardan hər hansı birini müşahidə etsəniz, həkiminizə bildirin.

- baş ağrısı;
- görmənin bulanıqlaşması və görmə pozğunluqları;
- körpələrdə istifadə edildikdə əmgəyin qabarması;
- qulaqda küy (qulaq cingiltisi);
- qarın ağrısı;

- iştahsızlıq;
- ürəkbulanma;
- mədə yanması;
- ishal;
- uşaqlarda dişlərin rənginin dəyişməsi və diş minasının inkişaf pozğunluğu;
- əzələ və oynaq ağrıları;
- qanda sidik cövhəri səviyyəsində (böyrək funksiyalarını göstərir) müvəqqəti dəyişikliklər.

Bunlar MONODOKS-un yüngül əlavə təsirləridir.

Əlavə təsirlərin bildirilməsi
İstifadə təlimatında qeyd olunub-olunmamasından asılı olmayaraq hər hansı əlavə təsirlərlə qarşılaşdıqda, həkim, əczaçı və ya tibb bacısına bildirilməlidir. Həmçinin, www.titck.gov.tr internet səhifəsindəki "Dərman Əlavə Təsirlərinin Bildirilməsi" işarəsinə kliklәməklə və ya 0800 314 00 08 nömrəli əlavə təsir bildirmə xəttinə zəng etməklə qarşılaşdığınız əlavə təsirləri Türkiyə Farmakonəzarət Mərkəzinə (TÜFAM) bildirin. Baş verən hər hansı əlavə təsirləri bildirməklə siz istifadə edilən dərman vasitəsinin təhlükəsizliyi haqqında daha çox məlumat əldə etməyə töhfə verəcəksiniz.
Bu istifadə təlimatında qeyd olunmayan hər hansı əlavə təsirlə qarşılaşdıqda, həkim və ya əczaçıya məlumat verin.

5. MONODOKS-un saxlanma qaydası
Preparatı öz qablaşdırmasında, uşaqların görmədiyi və əli çatmayan yerdə saxlamaq lazımdır.
25°C-dən aşağı otaq temperaturunda və işıqdan qorunan yerdə saxlanmalıdır.

Son istifadə tarixinə uyğun olaraq istifadə edin.
Qablaşdırma üzərində göstərilən yararlılıq tarixindən sonra preparatdan istifadə etməyin.

İstifadə müddəti bitmiş və ya istifadə olunmamış dərman vasitələrini atmayın! Onları Ekologiya və Şəhərsalma Nazirliyinin müəyyən etdiyi toplama sisteminə təqdim edin.

Qeydiyyat vəsiqəsinin sahibi:
Deva Holding A.Ş.
Küçükçekmece/İSTANBUL
Tel: 0212 692 92 92
Faks: 0212 697 00 24
E-mail: deva@devaholding.com.tr

İstehsal sahəsi:
Deva Holding A.Ş.
Kapaklı/TEKİRDAĞ